Səh. 2 Bəlkə də, qaytardı – Azər Musaoğlu

Səh. 3 Qaranlığı yaradanlar – Tural Qasımov

Səh. 5 Sürətli dünyanın yavaşlayan oxucuları – Afaq Azər

Səh. 6 Azərbaycanlı gənclərin Gürcüstanda təhsil imkanları və real problemlər – Validə Fətullayeva

Səh. 2 "Günah harada idi?" – Cəlal Yadigarlı

Səh. 4 ŞAGİRDLƏRİN BİRİNCİ SİNFƏ QEYDİYYATI YAŞADIĞI ÜNVANA ƏSASƏN APARILACAQ

Səh. 7 Tarixin dostluq səhifələri – Mirzə Məmmədoğlu



İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ "იენი იოლი" საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

31 DEKABR 2025-Cİ İL № 23 (240)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.


## KEÇMİŞ MÜDAFİƏ NAZİRİ VƏ DTX RƏİSİ HƏBS EDİLİB

Tbilisi Şəhər Məhkəməsi Gürcüstanın keçmiş müdafiə naziri Baço Axalaia barəsində həbs qətimkan tədbiri seçib. Bununla bağlı hakim Meia Melkadzenin sədrliyi ilə qapalı keçirilən prosesdə qərar qəbul edilib.

Prokurorluq iclasın qapalı keçirilməsini iş üzrə şahidlər arasında Gürcüstan Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) əməkdaşlarının olması və onların şəxsi məlumatlarının qorunması zərurəti ilə əsaslandırıb.





Qeyd edək ki, Gürcüstan Dövlət Təhlükəsizliyi Xidməti Baço Axalaianı 4 oktyabr hadisələri ilə bağlı saxlayıb. Ona Gürcüstan Cinayət Məcəlləsinin 225-ci maddəsinin 1-ci hissəsi – qrup halında zorakılığın təşkili və ona rəhbərlik etmə maddəsi ilə ittiham irəli sürülüb. Bu maddə doqquz ilədək azadlıqdan məhrumetmə cəzasını nəzərdə tutur.

Tbilisi Şəhər Məhkəməsi həmçinin Gürcüstan Dövlət Təhlükəsizliyi Xidmətinin keçmiş rəisi Qriqol Liluaşvilini qətimkan tədbiri olaraq həbs cəzasına məhkum edib. Qərar dekabrın 24-də axşam saatlarında elan edilib. İş üzrə məhkəməyəqədərki iclas 16 fevral saat 12:00-a təyin edilib.

Məhkəmə iclası ittiham tərəfinin vəsatəti ilə qapalı keçirilib. Təqsirləndirilən şəxs Qriqol Liluaşvili məhkəmədə iştirak etməyib.

Məlumat üçün bildirək ki, prokurorluğa dindirilmək üçün gələn Dövlət Təhlükəsizliyi Xidmətinin keçmiş rəisi Qriqol Liluaşvili dekabrın 23-də həbs edilib. O, Gürcüstan Cinayət Məcəlləsinin əvvəlcədən əlbir olan bir qrup şəxs tərəfindən xüsusilə külli miqdarda rüşvət almağı nəzərdə tutan maddələri ilə təqsirli bilinir. Günahı sübuta yetirilərsə, sabiq DTX rəisini 11 ildən 15 ilə qədər azadlıqdan məhrumetmə cəzası gözləyir.

## XARİCDƏ YAŞAYAN GÜRCÜSTAN VƏTƏNDAŞLARI SEÇKİLƏRDƏ İŞTİRAK EDƏ BİLMƏYƏCƏKLƏR

Gürcüstanda parlament, bələdiyyə və digər seçkilər üzrə səsvermə yalnız ölkə daxilində keçiriləcək. Ölkə parlamenti bununla əlaqədar Seçki Məcəlləsinə dəyişikliklər edib. Dəyişiklikləri 79 deputat dəstəkləyib, 11 deputat isə əleyhinə səs verib.

Yeni qaydaya əsasən, bundan sonra Gürcüstanda bələdiyyə seçkiləri kimi parlament seçkiləri də yalnız ölkə daxilində keçiriləcək. Gürcüstan vətəndaşları parlament seçkiləri ilə yanaşı, plebisit və referendum zamanı da səsvermə hüququndan yalnız dövlət sərhədləri daxilində istifadə edə biləcəklər.

Məcəlləyə edilən digər dəyişikliyə əsasən, siyasi partiyalar parlament və bələdiyyə seçkilərində yalnız üzvlərinin namizədliklərini irəli sürə biləcəklər. Partiya mənsubiyyəti olmayan şəxsin namizədliyini isə yalnız təşəbbüs qrupları irəli sürə biləcəklər.



Qeyd edək ki, bu vaxta qədər Gürcüstanda keçirilən parlament seçkiləri zamanı xarici ölkələrdə də seçki məntəqələri yaradılırdı. Gürcüstanda növbəti parlament seçkiləri 2028-ci ilin oktyabrına təyin olunub.

Ölkədə birbaşa prezident seçkiləri isə sonuncu dəfə 2018-ci ildə baş tutub. Gürcüstanın parlament idarəetmə formasına keçməsindən sonra dövlət başçısı 300 nəfərdən ibarət Seçicilər Kollegiyası tərəfindən seçilir.

## GÜRCÜSTAN VƏ TÜRKİYƏ DAXİLİ İŞLƏR NAZİRLƏRİ ƏMƏKDAŞLIĞIN DƏRİNLƏŞDİRİLMƏSİNİ MÜZAKİRƏ EDİBLƏR

Gürcüstan Daxili İşlər Nazirliyinin yaydığı məlumata əsasən, Türkiyədə səfərdə olan daxili işlər naziri Geka Geladze türkiyəli həmkarı Əli Yerlikaya ilə görüşüb.

Görüş zamanı iki ölkə arasında hüquq-mühafizə sahəsində mövcud tərəfdaşlıq münasibətləri, bu əməkdaşlığın daha da dərinləşdirilməsi perspektivləri və prioritet istiqamətlər müzakirə olunub.

Əli Yerlikaya Gürcüstan ərazisində Türkiyə Hərbi Hava Qüvvələrinə məxsus yük təyyarəsinin qəzaya uğraması zamanı göstərilən dəstəyə, eləcə də effektiv əməkdaşlığa görə gürcü həmkarına bir daha təşəkkürünü bildirib.



Səfər çərçivəsində Gürcüstanın daxili işlər naziri nümayəndə heyəti ilə birlikdə Türkiyə Daxili İşlər Nazirliyinin İstanbul Polis İdarəsini də ziyarət edib. Nazir qurumun fəaliyyəti, iş istiqamətləri və struktur xüsusiyyətləri ilə tanış olub.



# BƏLKƏ DƏ, QAYTARDI

Azər Musaoğlu
azermusaoghlu@gmail.com

Bu yaxınlarda günəşli havanın fürsətindən istifadə edərək kompüterdən və telefondan bir horu da olsa aralanmaq üçün yenə parka getdim. Yaşlılardan bir neçəsi domino oynayır, bir neçəsi də oynayanlara baxa-baxa sovet dövrü ilə indini müqayisə edərək sovet hökumətinin heyfini çəkirdilər. Biri Qarbaçovun keçəl başındakı xalı söyür, biri Amerikanı lənətləyir, biri o biriləri Putinin sovet hökumətini geri qaytaracağına inandırmağa çalışırdı...

Kənardan baxanda elə görünürdü, sanki bu yaşlı adamlar hər gün bu parka gəlib domino oynaya-oynaya sovet hökumətinin yenidən qurulacağını gözləyirlər, inanırlar ki, Putin onların keçmişini qaytarmaq üçün Ukrayna ilə müharibə edir. İnanırlar ki, onların yenə də ucuz və keyfiyyətli yağ yemələri üçün; ildə bir dəfə putyovka almaları üçün; benzinin, qazın qəpik-quruşa olması üçün; 25 rubla təyyarə ilə Moskvaya uçub, restoranda nahar edib geri qayıtmaları üçün; evi-eşiyi kolxozun, sovxozun, zavodun, fabrikin materialı ilə pulsuz tikmələri üçün, talayıb yemələri üçün Putin bütün dünya ilə mübarizə aparır.

Təxminən bir saat parkda oturub onların söhbətinə qulaq ortağı oldum. Yadıma Mirzə Cəlilin "Bəlkə də, qaytardılar" hekayəsi düşdü. Mirzə Cəlilin hekayəsindən fərqli olaraq mənim hekayəmin qəhrəmanları sovet höhumətinin dağılmasını deyil, tezliklə qurulmasını arzulayırdılar. Mirzə Cəlilin qəhrəmanları hər gün dənizkənarı parka yığışaraq keçmiş günlərini həsrətlə xatırlayır, qəzet səhifələrində, xaricə gedib-gələn adamlarda sovet hökumətinin tezliklə dağılacağına işarə edən xəbər, məlumat axtarır, "bəlkə də, qaytardılar" deyərək sövet hökumətinin əllərindən aldığı mallarının-mülklərinin geri qaytarılacağına inanaraq özlərinə təsəlli verirlər.

Mənim qəhrəmanlarım isə hər gün parka yığışaraq domino oynaya-oynaya keçmiş günlərini həsrətlə xatırlayır, televiziya xəbərlərində, Rusiyaya gedib-gələn adamlarda sovet hökumətinin tezliklə qurulacağına işarə edən məlumat axtarır, "bəlkə də, qaytardı" deyə Putinin onların qırmızı sovet pasportlarını, partbiletlərini, zavodu, fabriki qaytaracağına inanaraq özlərinə təsəlli verirlər. Mirzə Cəlilin qəhrəmanlarından fərqli olaraq mənim qəhrəmanlarımın sovet pasportundan, partiya biletindən və fəhlə işindən başqa itirdiyi mal-mülk olmayıb.

Əslində isə, oturub düşünəndə, elə bu yaşlıların özlərini sorğu-sual edəndə görürsən ki, bu nəslin itirdiyi elə də böyük zad deyil; görürsən ki, indi daha yaxşı yaşayırlar, evləri ondakından daha böyükdür, mindikləri maşınlar ondakından daha komfortludur, yedikləri-içdikləri ondakından daha çeşidlidir, geyindikləri ondakından daha bahalıdır, toyları, bayramları ondakından daha dəbdəbəlidir, ondakından daha yaxşı istirahət edirlər və dünyanın istənilən yerinə gedə bilirlər və sair. Amma nə faydası, nə qədər danışırsan danış, arqumentlər ortaya qoyursan qoy, faktları göstərirsən göstər, yenə də kar könlündəkini anlar. Sabah əlimizə mikrofon alıb kənd-kənd, küçə-küçə düşüb sorğu aparsaq, inanın, müəllimindən tutmuş fəhləsinə kimi, 80-90 faiz sovet hökumətinin qayıtmasını istəyəcək, Leninin, Stalinin xortdamasını arzulayacaq, Putini dəstəkləyəcək.

Baxırsan bu həmişə narazı yaşlı nəslin nümayəndələrinə və görürsən ki, onlar əslində, sövet hökuməti üçün yox ey, öz keçmişləri üçün, analı-atalı, nənəli-babalı, qohumlu-qonşulu uşaqlıqları üçün; güclü, enerjili, həvəsli, sevib-sevilən gənclikləri üçün darıxırlar, ucuz və keyfiyyətli yağ üçün yox və inanırlar ki, Putin onların bu keçmişini qaytaracaq.

Bu yerdə Mirzə Cəlilin Balaqədəşi kimi çıtmıq çala-çala "bəlkə də qaytardı, bəlkə də qaytardı" deyə oxuyub oynamağın gəlir...

# "GÜNAH HARADA İDİ?"



Bəşəriyyətin cəmiyyət olaraq formalaşması və bu cəmiyyətlərin siyasi, mədəni, ticari inkişafı bildiyimiz kimi, Şərqdən başlamışdı. Siyasi birliyin və sivilizasiyanın yarandığı ilk məkan Mesopotamiyadır (İkiçayarası). Şumerlərlə başlayan inkişafın müəyyən pillələrini başqa Şərq xalqlarında da görmək mümkündür. Mən deyərdim ki, bəşəriyyətə sunulan ən böyük sərvət insanları siyasi müstəvidə birləşdirmək olmuşdur. Şumer sivilizasiyasının da elə şəhər-dövlətlərdə yarandığını görürük. İnsanlığın mədəniyyət dastanına nəzər saldıqda Mesopotamiya ilə yanaşı Misirin, Çinin, İranın, Hindistanın da bir zamanlar böyük mədəniyyətlərin beşiyi olduğunu görmək olar.

Eramızdan əvvəl 4-cü minillikdə başlayan Şərq sivilizasiyası uzun illər davam etdi. İlk dinlər, ilk yazılar, ilk dövlətlər, ilk bazar, ilk elmi kəşflər və s. şərqdə yarandı. Lakin bu gün yaxın tarixə nəzər salanda Şərqin Qərbdən geridə qaldığını görürük. Düşünən insanda sual yaranır – Görəsən niyə? Günah harada idi? Şərq inkişafının niyə dayanması tarix elminin ən aktual diskussiyalarından biridir. Gəlin biz bu mövzuya fərqli yanaşaq və Şərqin niyə geridə qaldığından danışmazdan əvvəl Qərbin necə inkişaf etdiyindən danışaq.

Əksər tarixçilər Avropada dini hakimiyyətlə dünyəvi hakimiyyətin ayrılmasını böyük inkişafın ən əsas səbəbi sayır. Avropada kilsə hakimiyyəti cəmiyyətin bütün sahələrini, hətta bəzən dövləti belə öz təsiri altına alırdı, böyük vergilər təyin edirdi və əhalinin təsirdən azad olmasına icazə vermirdi. Bir sözlə, Avropada kilsə ən böyük feodal idi və əhalini asılı vəziyyətdə saxlayırdı. XVI əsrdən başlayaraq M.Luter, J.Kalvin kimi şəxsiyyətlər kilsənin avtoritetinə qarşı çıxaraq cəmiyyətdə təsirini azaltmağa başladılar. Onlara görə, kilsənin sərvəti olmamalı idi. Məhz bu şəxsiyyətlərin fədakar təbliğatları ilə Avropa cəmiyyəti oyanmağa başladı. Kalvini kapitalizmin qurucusu olaraq sayanlar da var. Uzun müddət Avropada din və dövlət bir-biri ilə mübarizə apardı və bu mübarizədən dövlət qalib çıxdı. Kilsənin təsirindən çıxdıqdan sonra elmə maraq atmağa başladı.

Bəs Şərq niyə geridə qaldı? Kilsə hakimiyyətindən fərqli olaraq islam dini elmi inkişafın və insan azadlığının tərəftarı idi. Təəssüfvericidir ki, islamın bu böyük xüsusiyyəti ancaq 3-4 əsr davam etdi. İlk dövlərində islam aləminin hər bir yanında kəşflər davam edir, həndəsə, cəbr, astronomiya, tibb, arxitektura, fəlsəfə məhz müsəlmanlar tərəfindən böyük inkişaf etdirilir. Klisədən fərqli olaraq mədrəsələrdə dini dərslərlə yanaşı elmi dərslər də tədris olunur. Xarəzmi, Biruni, əl-Heytəm, İbn Sina, əl-Razi, İbn Həyyan, Cəzəri, Fərabi, İbn Haldun, İbn Rüşd, Qəzzali kimi böyük alimlər elmə bənzəri görülməmiş yeniliklər gətirir. İspaniyada qurulan Əndəlüs dövləti Avropada ən böyük kitabxananı qurur, ilk dəfə Avropaya ümumi hamam sistemini, kanalizasiya sistemini, yolları şam işığı ilə aydınlatma sistemini gətirir. Xristianlar Aristotelin, Sokratın, Platonun kitablarını onlar xristian deyildi deyə yandırmağa başlayırlar. Bu zaman islam alimləri həmin kitabları ərəb dilinə tərcümə edərək qoruyub saxlayırlar. Bir tək bu nümunədən islamın elmə yanaşma tərzini aydın görə bilərik. Əndəlüs dövlətinin gördüyü işlərə əsrlərdir saysız kitablar yazılır. Ədəbiyyat nümunələri isə insanlıq tarixinin incilərindəndir. Elə öz şairlərimizi götürsək, Nizaminin, Füzulinin, Nəsiminin yazdığı əsərlərin dünyada tayı-bərabəri yoxdur.

XII əsrdən sonra islam dünyasında bir durğunluq başlayır. Bu durğunluğun əsasında məzhəb fərqliliyi uğrunda gedən mübarizələr və islam aləmində bir neçə fərqli dövlətin yaranıb bir-biri ilə mübarizə etməsi dayanır. Səlcuqlu dövləti demək olar ki, Afrika dövlətləri xaric bütün islam aləmini əhatə edirdi. Bu böyük dövlət vahid ideologiyaya, vahid inkişafa və vahid məzhəbə köklənmişdi. Bu səbəbdəndir ki, adını sadaladığım böyük alimlərin əksəriyyəti Səlcuqlu dövründə yaşayıb. Sultan Məlikşah dövrü islam tarixinin ən parlaq dövrü sayıla bilər. Tək Məlikşah dövründə gedən elmi inkişaf bəlkə də bütün islam tarixindəki inkişafdan böyükdür. Səlcuqlu dövlətinin yıxılması islam dünyasında böyük fəlakətlərə yol açdı. Levant bölgəsinə başlayan Xaçlı yürüşləri, hakimiyyət uğrunda gedən mübarizə, Xaşxaşi kimi cərəyanların güclənməsi islam dünyasını parçaladı və zəiflətdi. Amma bunlar da aydın nəslin tükənməsinə tam səbəb deyil. Çünkü bu qarışıq dövrdə Mövlana, Yunus Əmrə kimi böyük şəxsiyyətlər yetişdi.

Şərqin inkişafına ən böyük zərbəni monqollar vurdu. Yunanların dili ilə desək, bu, "barbar" qövm Şərq mədəniyyətinin altını üstünə çevirdi. Bağdad kitabxanası dövrün bənzəri olmayan bir sərvəti idi. Minlərlə kitabı yandıran, Dəclə çayına atan monqollar Şərq millətlərinə elə bir zərbə vurdular ki, indiyə qədər sağalmır.

Bəzi insanlarımız Şərq inkişafına islam dininin əngəl qoyduğunu düşünürlər. Bu, ancaq dar düşüncənin və islamofobiyanın bəhrəsidir. Gerçək islam heç vaxt elmə əngəl qoymayıb.

**Cəlal Yadigarlı**
*Tbilisi Dövlət Universitetinin Tarix fakültəsinin 4-cü kurs tələbəsi*

# ƏDAVƏTDƏ KEÇƏN ÖMÜR



Mənim uşaqlığım milli münaqişələr dövrünə düşdü. O qədər əcaib rəvayətlər eşidirdik ki, bəzən yuxuda da erməni görürdük. "Erməni" sözünü bir-birimizə söyüş kimi deyirdik. Bu, bizim günahımız deyildi, mətbuatın, televiziyanın aşıladığı təəssürat və siyası oyunçuların oyuna gətirdiyi xalqlara qurulan tələlər idi. Bu münaqişənin içində böyüdük və tələbə olduq. Bizimlə oxuyan oğlanlardan əsgər gedənlər arasında atəşkəsin gülləsinə tuş gələnlər də oldu. Guya sakitçilik idi, amma içimizdə bir narahatlıqla qaçqınlı, köçkünlü dövrümüzdə ailə də qurduq, oğullar anası olduq. Balalarımızı bağrımıza basanda bir gün onun böyüyüb əsgər gedəcəyini düşünəndə qorxduq. Bərk-bərk sıxdıq, "yox" deyərək hayqırmaq istədik. Axı ana fəryadını ana olmayan kəs heç vaxt anlaya bilməzdi.

Beləcə qorxa-qorxa balalarımızı böyütdük. Həmişə içimizdə qopub düşə biləcək bir sim gəzdirdik. Bir gün Azərbaycan öz sərhədlərini bərpa etmək üçün haqqını tələb etdi və haqq qalib gəldi. Minlərlə ananın həmin sarı simli ürəyi parçalandı. Dərdə hamımız ağladıq, Vətən sağ olsun deyilsə də anaları analar duyar, paralanmış ürək heç vaxt birləşə bilməz. O analar bu dünyadan para ürəklə gedəcəklər, balasını bağrına basa bilmədiyi həsrət ilə, yaşlı gözlərlə...

İkinci Qarabağ müharibəsindən beş illik bir zaman ayırdı bizi. Müharibənin izlərinin nəinki Azərbaycanda, biz borçalılara da bir simsar çatan tərəfi var, ən azından bir millət olaraq. Unudulmayacaq dərdlərlə birgə tarixin qaysaqlatmaq mərhələsi də var. İstəsək də, istəməsək də həyat davam edir. Müharibənin müharibə qanunları var. Qaçılmaz. Olmayaydı kaş, amma var...

İndi nə gözəl ki, Azərbaycan yeni danışıqlar aparır, ədavəti davam etdirmək istəmir. Atdığı addımla həm özünə xeyir verir, həm qarşıdakına. Pis tərəfi odur ki, bu addım birmənalı qarşılanmır. Bəzi vətənpərvərlər bunu şəhid ruhuna xəyanət kimi qiymətləndirir. Bu adamlar necə düşünür, yəni əbədi ədavətlə yaşayaq, əslində bu ədavətin tarixi də, təşkilatçıları da məlumdur. Sıravi erməni xalqı da bizim kimi yəqin yuxuda türk görüb, söyəndə türk deyiblər.

Müharibənin öz qanunları var, qələbəyə gedən yol itkidən gedir. O da kimin qismətinə yazılıb, kimsə bilməz. O itki tək qalib olan tərəfdə olmur, məğlub olanlar daha çox itki verir...

Yəqin hamınız "nemes-sovet" kinolarına baxmısınız, nələr olmurdu. Hələ partizanların törətdiyi partlayışılarda kütləvi ölümlər... Orada ölənlər də hansısa ananın övladı idi, deyilmi?! 20 milyon itki vermişdi keçmiş SSRİ, amma bu gün həmin qara kağızlı babaların nəvələri Almaniyada yaşayırlar... Çox yaxın tanıdığım bir adamın ata babası müharibədə itkin düşüb, ana babası da alman faşistindən aldığı 8 qəlpə ilə veteran olaraq illərlə mükafatlandırılıb, "nemeslərə tutduğu toylardan" məktəb şagirdlərinə hər il 9 mayda xatirələr danışıb. 15-20 il əvvəl veteran babanın oğlu getdi Almaniyaya... Nə isə, işi yaxşı alındı, şirkət yaratdı, iş qurdu, ağıllı rəhbərlik etdi. "Adətimizə" uyğun olaraq bütün dostu-qohumu yığdı ora. Babaları veteran, itkin, şəhid olan nəvələr hamısı Almaniya dövlətindən maddi fayda götürdülər. Heç kim bunu XƏYANƏT qəbul etmədi. Veteran oğlu isə təqaüdçüdür, arvadı və özü yüksək məbləğdə təqaüd alırlar, gəlib öz ata-baba yurdunda həmin təqaüdlə firavan yaşayırlar.

Faşistlərin yəhudilərə münasibətindən yazmıram, amma bir "Pianoçu" filmini xatırlasaq, yaxud "Zolaqlı pijamalı uşaq" filmi bizə o müharibənin dəhşətini tam aşılaya bilər.

Qarabağ müharibəsində Azərbaycan qədər erməni xalqı da əzab, stres, itki yaşadı, kifayət deyilmi? 120 ildir ki, bu oyunun qurbanları sadə camaatdır. Nə yaxşı ki, dostluğa gedən yollara işıq düşür. Nəyə lazım bu ədavət... Mən istəyirəm ki, bugünkü gənclik nifrətdən, kindən, ədavətdən uzaq yaşasın.

Biz parç suyu əlimizdə çox asan saxlayırıq, zaman keçdikcə suyun çəkisi dəyişmir, amma fiziki gücümüz tükənir. Ədavət də uzandıqca nifrətin yükü mənəviyyatı korlayır.

Gəlin sülhə doğru atılan addımları alqışlayaq ki, dünyamız gözəlləşsin!!!

**Esmira Ələkbərli**

*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

# QARANLIĞI YARADANLAR



Tural Qasımov

Viktor Hüqonun "Səfillər" adlı əsərində ifadə etdiyi əsas fikirlərdən biri də budur: "Əgər ruhumuz qaranlıqda qalarsa, günahlar ortaya çıxar. Günahkar günahı işləyən deyil, qaranlığı yaradan şəxsdir".

Bu fikir məni cəmiyyətimizdə mövcud olan problemlər üzərində dərindən düşünməyə vadar etdi. Xüsusilə də gənclərin sürükləndiyi narkotik asılılığı, şiddətə meyillilik, içki, qumar və bu kimi qaranlıq dünyalar haqqında. Bu elə bir qaranlıqdır ki, həm gənclərin, həm də bütövlükdə cəmiyyətin gələcəyini aydınlıqdan məhrum edir.

Bu qaranlıq dünyanın hər gün neçə-neçə gənci, insanı öz içinə çəkdiyini hamımız görürük. Ancaq əsas məsələ sadəcə görmək deyil, kömək etməkdir. Təəssüf ki, biz çox zaman kömək etmək əvəzinə bütün günahı həmin gəncin üzərinə yıxır və onu asanlıqla tənqid edirik.

Viktor Hüqonun ifadəsi ilə desək, bu gənclərin ruhu hansı qaranlıqda qalır ki, onlar bu qədər günaha sürüklənirlər? Onlar qaranlıqda itib batarkən biz bu qaranlığı aydınlatmaq üçün nə edirik?

Əslində isə o gənci qaranlığa məhkum edən cəmiyyətin özüdür – bizlərik.

Onların qaranlıq dünyaya əsir olmalarının bir neçə əsas səbəbi vardır. Birincisi, ailələrin onlara laqeyd yanaşması, gələcəkləri ilə yetərincə maraqlanmamasıdır. Gənclərlə maraqlanmaq sadəcə ciblərini pulla doldurub istədikləri yerə getmələrinə icazə vermək demək deyil. Onlarla maraqlanmaq, onların ruhunu, qəlbini və zehnini maddiyyatla yanaşı, mənəviyyatla da doldurmaqdır.

İkincisi, gənclərin elmdən, düşünməkdən, fikir ortaya qoymaqdan və onlara özlərini dəyərli hiss etdirən təhsildən məhrum edilməsidir. Elmlə məşğul olmayan beyin dənizdə kompasını itirmiş gəmiçiyə bənzəyir; cəhalət qaranlığında yolunu tapa bilməz.

Üçüncüsü, işsizlik və halal qazanc şüurunun formalaşmamasıdır. Belə bir vəziyyətdə olan insan haqsız qazanc əldə etmək üçün qaranlıq dünyada hər cür günaha sürüklənə bilir.

Dördüncüsü isə, sosial medianın şiddəti, haqsızlığı və gücün, haqlı olmasa belə, hər zaman hörmət gördüyünü təbliğ etməsidir.

Bütün bu qaranlıq bizim gələcəyimizi əlimizdən alır. Ancaq əsas sual budur: Bu qaranlığı yaradan kimdir?

Təəssüf ki, bu suallar üzərində, demək olar ki, düşünmürük. Gənclərimizin aydınlıq gələcəyini əllərindən alıb onlara qaranlıq yaradan yenə bizik – cəmiyyət və bu vəziyyətdən fayda əldə edənlər.

Nəticə olaraq demək olar ki, əsas günahkar ruhu qaranlıqda qalıb günaha sürüklənənlər deyil, onlar üçün bu qaranlığı yaradanlardır.

Ancaq unutmayaq ki, qaranlıq yolları aydınladacaq güc və iradə yenə bizdədir. Məsələ qaranlığı təsvir etmək deyil, onu aydınlatmaqdır. Tarix qaranlıqları aydınlığa çıxaran qəhrəmanlarla doludur. Bizlər də bu qəhrəmanlardan ilham alaraq gələn yazımıza qədər qaranlığı aydınlığa çıxarma yolları üzərində düşünək...

# 1 İXTİSAS, 1 UNİVERSİTET – PARLAMENT ABİTURİYENTLƏR ÜÇÜN MƏHDUDİYYƏT VƏ DƏYİŞİKLİKLƏRİ TƏSDİQ EDİB




***"Gürcüstan hökumətinə iki əsas parametri müəyyən etmək hüququ verilir, birinci: tələbələrin kvota məsələsi – tələbələrin sayının kvotası Gürcüstan hökumətinin qərarı ilə olacaq. Bu qərar əmək bazarının tələblərinə əsaslanacaq. İkinci: hökumət onun əmlakında olan dövlət universitetlərində özünə mühüm olacaq konkret istiqamətləri müəyyən etməyi planlaşdırır"*** – ali təhsil islahatı ilə əlaqədar qanunvericilik dəyişikliklərinin təqdim edilməsi zamanı parlamentdə təhsil nazirinin müavini Zviad Qabisonia qeyd edib.

Parlament dəyişiklikləri artıq təsdiq edib. Bu o deməkdir ki, dövlət qrant maliyyəsi ləğv olunub və 3+1+1 modelinə keçiləcək, ancaq Z.Qabisonianın sözlərinə görə, dəyişikliklər 2026-cı ildə qəbul olunacaq tələbələrin sayına təsir etməyəcək:

***"Dövlət və ya özəl təhsil müəssisələri təxminən 150 minə yaxın tələbə qəbul edirdi və 2026-cı ildə də bu say dəyişməz qalacaq",*** – deyə nazir müavini bildirib.

Ali təhsil istiqamətində konkret dəyişikliyə gəldikdə, yeni maliyyələşdirmə sistemi tətbiq olunacaq – Gürcüstan hökuməti tərəfindən təsis edilmiş ali təhsil müəssisələrində təhsil almaq tamamilə dövlət tərəfindən, Gürcüstan hökuməti tərəfindən təyin edilmiş "Gürcüstan hökuməti tərəfindən təsis edilmiş ali təhsil müəssisələrinin maliyyələşdirilmə qaydası və şərtləri"nə uyğun olaraq həyata keçiriləcək.

Universitet sistemində 3+1+1 sistemi tətbiq olunacaq. Burada 3 il bakalavr, 1 il magistraturaya həsr olunacaq.

Gürcüstan hökuməti: Gürcüstanın Təhsil, Elm və Gənclər Nazirliyinin təqdimatı ilə universitetlərdə həyata keçirmək hüququ olan təhsil proqramları (kurikulumlar) siyahısını müəyyən edəcək. Eləcə də Gürcüstanın Təhsil, Elm və Gənclər Nazirliyinin təqdimatı ilə hər il dövlət tərəfindən təsis edilmiş ali təhsil müəssisələrində vahid milli/magistratura imtahanları ilə vahid milli/magistratura imtahanlarından keçmədən qəbul olunacaq tələbələrin sayını ali təhsil müəssisəsi təhsi proqramlarına əsasən təsdiq edəcək.

Onlayn universitetin konsepsiyası/modeli və standartın hazırlanması müddəti 2028-ci ilin 1 yanvarına qədər uzadılacaq.

**Sənəddən aydın görünür ki:**

1. Abituriyentlər (2026-cı ildə) vahid milli imtahanlar nəticəsində ali təhsil müəssisələrinə qəbul olacaqlar;
2. Dövlət ali təhsil müəssisələrinə imtahansız qəbul olmaq kateqoriyası yenə də qalmaqdadır;
3. Qeyd olunan qanunlayihə vahid milli imtahanların formatının dəyişdirilməsini nəzərdə tutur.

Nazir müavini onu da qeyd edib ki, aplikant müxtəlif dövlət universitetində fakültə seçə bilməz, özəl ali müəssisələrdə heç bir məhdudiyyət olmayacaq.

***"Guya bizim müəyyən tip məhdudiyyətləri nəzərə aldığımız düşünülür, normativ aktlarda oxşar tipli dəyişikliklər nəzərə alınmayıb.***

***Bu gün mövcud modelə əsasən Tbilisidə 5 hüquq, 5 iqtisadiyyat fakültəsi var. Dövlət universitetlərini nəzərdə tuturam: Tbilisi Dövlət Universiteti, İlia Dövlət Universiteti, Gürcüstan Texniki Universteti, Soxumi Dövlət Universiteti. Mövcud modelə əsasən, tələbə Tbilisi Dövlət Universitetinin hüquq fakültəsini, İlia Dövlət Universitetini, Gürcüstan Texniki Universitetini də seçə bilər.***

***Bu model məhdudlaşdırılacaq, çünki həmin 5 hüquq fakültəsini 1 fakültəyə çevirəcəyik, bir proqram olaraq birləşdirəcəyik. Bu, hökumət tərəfindən təyin edilmiş konsepsiyada yazılıb",*** – deyə Zviad Qabisonia bildirib.

# ŞAGİRDLƏRİN BİRİNCİ SİNFƏ QEYDİYYATI YAŞADIĞI ÜNVANA ƏSASƏN APARILACAQ



2026-2027-ci tədris ili üçün şagirdin birinci sinfə ümumi qeydiyyat mərhələsi ünvana əsasən həyata keçiriləcək. Bu barədə Gürcüstanın təhsil, elm və gənclər naziri Givi Mikanadze ümumi təhsil sisteminin islahatı konsepsiyasının təqdimatında bildirib.

Nazir qeyd edib ki, 2026-2027-ci tədris ilində şagirdlərin birinci sinfə qeydiyyatı ilə bağlı yenilik hələlik yalnız böyük şəhərlərə aid olacaq.

"2026-2027-ci tədris ili üçün birinci siniflərin qeydiyyat prosesində dəyişikliklər olacaq. Ümumi qeydiyyat mərhələsi başlayana qədər şagirdin qəbulu qeydiyyatda olduğu yaşayış ünvanına əsasən həyata keçiriləcək. Bu əlavə mərhələ yalnız böyük şəhərlərə aiddir", – deyə G.Mikanadze bildirib.

Onun sözlərinə görə, məktəblərdə qeydiyyat yaşayış ünvanına əsasən ümumi qeydiyyat başlayana qədər elan olunacaq. Bu barədə 2026-cı ilin mart ayında ətraflı qərar qəbul olunacaq.

"Bir çox hallarda, məsələn, məktəb evdən təxminən 400-500 metr məsafədə yerləşir, amma həmin məktəbə uşağın qeydiyyat olunması problemdir. Sistem düzgün işləyir, buna baxmayaraq, ümumi qeydiyyat prosesinə müxtəlif rayon, məntəqə sakinləri qoşulurlar. Sistemin yüklənməsindən irəli gələrək, ola bilsin, məsələn, Qldanda yaşayan sakinimiz uşağı Saburtaloda yerləşən məktəbə qeydiyyat etsin. Ancaq həmin məktəbin yaxınlığında yaşayan ailə isə öz uşağını qeydiyyatdan keçirə bilməsin. Əlbəttə, bu, müəyyən qəzəb yaradır və tamamilə anlaşılandır. Eləcə də nadir hallarda Mtsxetadan, Kaspidən, Rustavidən Tbilisiyə məktəbə uşaqlar gətirirlər və bu göstərici yaşadığımız yerdə gedən proseslərdən qeyri-adekvatdır. Bu, qismən də olsa səhərlər nəqliyyat vasitələrinə maneəçilik yaradır. Bu islahatın həyata keçirilməsində bizim məqsədimiz bütün məktəblərin prestijli olması, bütün məktəblərdə vahid standartın tətbiq edilməsi və fərqlilik komponentinin olmaması, bütün məktəblərin ali standartlara cavab verməsidir", – deyə nazir qeyd edib.

Təhsil, elm və gənclər naziri məsələ ilə bağlı nümunə olaraq Didi Diğomidəki vəziyyətdən danışıb.

"Didi Diğominin göstəricilərini nəzərə alaq, bu məntəqədə yalnız üç ictimai məktəb var və əlbəttə, bu, problemdir. Belə halda, ilk növbədə məhz Didi Diğomidə yaşayanlara imkan verməliyik ki, həmin üç məktəbə öz uşaqlarını qeydiyyatdan keçirsinlər. Amma əgər onlara yer qalmazsa, məhz buna görə, infrastruktur məsələsi sonuna qədər həll olunmasa, bizim ümumi prinsipimiz var ki, valideynə sonrakı mərhələdə Tbilisi miqyasında uşağını hər hansı məktəbə qeydiyyatdan keçmək və həmin məktəbə aparmaq imkanı verir. Bu komponent sadəcə konkret məntəqədə, rayonda, şəhərdə şagirdlərin qeydiyyatını daha çox tənzimləyir", – deyə Givi Mikanadze bildirib.

Onun sözlərinə görə, uşağın ən yaxşı maraqlarını, onun sosial-emosional hazırlığını və inkişaf tempini nəzərə almaqla məktəb yaşı 6 yaş müəyyən edilib. Bu isə şagirdin yalnız 15 sentyabra qədər 6 yaşı tamam olduğu halda məktəbə qəbul olunacağını nəzərdə tutur.

***Səhifədəki məlumatlar "edu.aris.ge" və "etaloni.ge" saytlarından götürülüb. Gürcü dilindən tərcümə etdi Aynurə Əliyeva***

# "BEEZ"İ BİZ EDƏN DƏ ELƏ BİZ ÖZÜMÜZÜK



Bir ilin də sonuna gəldik. Bəli, bir çox şeylər dəyişsə də, bir çox şeylər olduğu kimi qalır. Nə isə... Bu dəfə nə Tofiq əmidən, nə də Jalə xaladan danışacam. Bu dəfə "BEEZ" Uşaq Teatrının 2025-ci ildə az da olsa gördüyü işlərdən bəhs edəcəm.

Fevral ayında Abdulla Şaiqin "Tıq-Tıq xanım" pyesini müasir formatda hazırlayaraq ilk premyeramızı Qardabanidə, daha sonra isə paytaxt Tbilisi və Marneulidə nümayiş etdirdik. Bütün bunları öz gücümüzlə, heç bir sponsor dəstəyi olmadan etdik. Bəs "Tıq-Tıq xanım"la tamaşaçılarımıza nə aşılaya bildik?

Düzdür, hər şey əsərdə olduğu kimi olmasa da, biz dostluğun, sevginin, birliyimizin, milli musiqimizin, eləcə də gürcü və Azərbaycan dostluğunun gözəlliyini göstərdik. Biz üzərimizə düşən teatr mədəniyyətini təbliğ etməyi, uşaqlara teatrın nə qədər vacib olduğunu aşılamağı qarşımıza məqsəd qoyduq.

Sonra növbəti tamaşamızın məşqlərinə başladıq. Azər Musaoğlunun müəllifi olduğu "Keçmişdən gələn oğlan" pyesinin motivləri əsasında hazırladığımız bu tamaşada bizə çox insan dəstək oldu. Dəstəkçilərimiz hansısa qurum və ya nazirlik deyildi, adi insanlar idi – teatra dəyər verən, bizə ürəkdən kömək edən insanlar. Təbii ki, teatrımızın aktyorlarının valideynlərinin dəstəyi də danılmazdır. Onlar hər zaman yanımızdadırlar və dəstəklərini əsirgəmirlər. Bu gün "BEEZ"i biz edən də elə biz özümüzük. Birlikdə daha güclü, daha fəal və daha yaradıcı oluruq.

Gələk ilin ikinci tamaşasına – "Keçmişdən gələn oğlan"a. Əsəri ilk dəfə oxuduğum an məni duyğulandırdı. Çünki müəllif sanki bizi yazıb – bugünümüzü, dünənimizi, həyatımıza daxil olub bir parçamıza çevrilmiş problemlərimizi... Xüsusilə də günümüzün ən böyük bəlalarından biri olan texnologiya asılılığını. Əslində, əsər texnologiyaya qarşı deyil, ondan asılı olmadan yaşamağı, balansı qorumağı göstərir.

Gələk premyeraya. Premyeramız Qardabani Mədəniyyət Evində baş tutdu. Hər dəfə olduğu kimi, Qardabani sakinləri zalda nəinki oturmağa, hətta hərəkət etməyə belə boş yer buraxmamışdılar. Bu, təbii ki, bizi çox sevindirdi. Hətta kulisdə aktyorlarımızın həyəcanla "Müəllim, zal doldumu? Çox həyəcanlıyıq" demələri məni çox duyğulandırdı, içimdə bir səs dedi: "Artıq onlar bu işi bilirlər, bu sənəti hiss edirlər".

İşin başqa bir tərəfi isə gələn tamaşaçıların, demək olar, hər birinin: "Mənə bilet qaldımı? Mən də bilet istəyirəm!" demələri idi. Bəli, siz buna "anşlaq" deyirsiniz, biz isə belə deyirik: "Zal teatra dəyər verən insanlarla dolub-daşırdı".

Sonra səfərimiz Marneuli və paytaxt Tbilisiyə oldu və bununla da 2025-ci il üçün "BEEZ" Uşaq Teatrı öz birillik missiyasını tamamladı.

Deməli, 2025-ci ildə müşahidə etdik ki, bölgələrdə oynadığımız tamaşalar arasında tamaşaçı sayı baxımından birinci yerdə Qardabani oldu. İkinci yerdə paytaxt Tbilisi, üçüncü yerdə isə Marneuli oldu.

Biz "BEEZ" Uşaq Teatrı olaraq, təbii ki, bununla kifayətlənmirik. Dəstəyimiz olsa daha çox tamaşaçı qarşısına çıxacaq potensialımız var. Buna görə də heç bir çətinliyə baxmayaraq 2026-cı ildə "BEEZ" Uşaq Teatrı yeni tamaşalar üzərində çalışmağa davam edəcək.

**Binəli İslamoğlu**

*"BEEZ" Uşaq Teatrının bədii rəhbəri*

# SÜRƏTLİ DÜNYANIN YAVAŞLAYAN OXUCULARI



Kitab insanın ən yaxın dostudur deyiblər. Mənim fikirimə görə, bu heç də boşuna deyilmiş söz deyil. Hər kitab insan ruhuna açılan yeni bir pəncərədir. Kitab oxuduqca yalnız bilik qazanmırıq, həm də özümüzü tanıyırıq. Səhifələri çevirdikcə beynimiz güclənir, hisslərimiz dərinləşir, düşüncələrimiz formalaşır.

Kitab oxumaq insanı təkcə ağıllı etmir, onu daha anlayışlı, daha mərhəmətli biri edir. Çünki oxuduğumuz hər hekayədə tanımadığımız bir həyat gizlənir. Hər obrazın arxasında bir insanın ağrısı, əzabı, sevinci dayanır. Biz bu həyatları oxuduqca başqasının yaşadıqlarını özümüzünkü kimi hiss etməyi öyrənirik. Bu da insanı başqasını daha yaxşı başa düşməyə sövq edir və empatiya duyğusunu gücləndirir.

Birinə qulaq asmaq başqadır, onu başa düşmək isə tamam başqadır. Kitablar insana birini bütün qəlbinlə başa düşməyi öyrədir. Başqasının gözü ilə həyata baxmağı, onun yaşadıqlarını, ürəyində nə qədər fırtına qopduğunu sözlərinin arasından eşitməyi... – bütün bunları insana kitablar öyrədir.

Təəssüf ki, son zamanlarda kitab oxuyanların sayı kəskin azalıb. Bunun əsas səbəblərindən biri hər şeyin bu qədər əlçatan olmasıdır. Texnologiyanın sürətli inkişafı bizə saysız-hesabsız rahatlıq gətirsə də, gözlə görünməyən bəzi şeyləri də əlimizdən alır. Düşünmək və hiss etmək bacarığımızı yavaş-yavaş itiririk. Artıq axtardığımız hər şey bir saniyənin içində qarşımızdadır. Bir məlumat üçün zəhmət çəkməyə, araşdırmağa, səbir göstərməyə ehtiyac qalmayıb. Sadəcə barmağımızı hərəkət etdirməyimiz kifayətdir.

Yaxşı yadımdadır, atam cavan yaşlarında sözün əsl mənasında "kitab qurdu" idi. Oxumadığı kitab yox idi. Tez-tez klassik yazıçılardan sitat gətirirdi. Oxumağı o qədər sevirdi ki, yemək yeyəndə də boşqabının bir tərəfində mütləq kitab olurdu. Hətta anam "ağzını tapa bilməyəcəksən" deyə sataşırdı. İndi atam da bu yaşında "ağıllı telefon"ların əsiri olub. Artıq boşqabının yanında kitab yox, telefonu olur.

Ancaq bu asanlığın içində böyük bir boşluq da gizlənir, çünki sürətli bilik dərinlik gətirmir. Ekrandan oxunan qısa cümlələr, bir neçə saniyəlik videolar, şüşə arxasındakı görüntülər insanın ruhuna toxunmadan keçir. Onlar düşüncəni kəskinləşdirmir, hissləri böyütmür, insanın içindəki o sakit dünya ilə təmas qurmur. Barmağımızın ekranda yuxarı-aşağı hərəkəti, həyəcanla səhifə çevirməyin yerini tutmur.

Kitab oxumaq insanı düşündürür. Onu səs-küylü dünyanın əlindən alıb özü ilə baş-başa qoyur. Bəlkə də məhz buna görə texnologiyanın bu qədər gurultusu içində kitablar sakit qalır, çünki kitab oxumaq səssizlik tələb edir, diqqət tələb edir. İnsan da o sakitliyin içində özünü tapır. Elə buna görə də kitab oxumaqdan uzaqlaşmaq bir növ insanın özünün özündən uzaqlaşmağıdır.

Kitab oxuyan insan təkcə bir hekayəni deyil, bəzən öz həyatını, öz səhvlərini, öz həqiqətlərini oxuyur. Hər səhifə insanın öz içində gizlənmiş bir duyğunu oyadır, adını qoymadığı hisslərə dil verir. Elə buna görə də kitab oxumamaq sadəcə bir vərdişin itməsi deyil, insanın öz ruhundan, öz daxili səsindən uzaqlaşmasıdır.

Əlimdə Harri Potterin sehirli çubuğundan olsaydı hər kəsə məhz bunu öyrədərdim. Deyərdim ki, kitablar sadəcə əyləncə üçün deyil. Hər oxunan kitab səni bir az daha insan edir, bir az daha yumşaldır, bir az daha gücləndirir.

**Afaq Azər**

# AZƏRBAYCANLI GƏNCLƏRİN GÜRCÜSTANDA TƏHSİL İMKANLARI VƏ REAL PROBLEMLƏR



Son illər Azərbaycan və Gürcüstan arasında təhsil sahəsində əməkdaşlıq daha da genişlənir. İki ölkənin təhsil nazirlərinin Tbilisidə baş tutan görüşü də elə bunun bariz nümunəsidir. Görüşdə həm ümumi təhsillə, həm də ali təhsillə bağlı yeni layihələr, universitetlərarası tərəfdaşlığın gücləndirilməsi və bu kimi məsələlər müzakirə olunub. Bu cür görüşlər onu göstərir ki, hər iki ölkə təhsil sahəsində uzunmüddətli, davamlı əməkdaşlıq qurmaq niyyətindədir. Lakin mənim fikrimcə, bu planların real həyata keçməsi yalnız rəsmi görüşlərdən deyil, həm də məktəblər və universitetlər səviyyəsində görüləcək konkret işlərdən asılıdır.

Görüş haqqında verilən rəsmi məlumatlara görə, Gürcüstanın təhsil naziri Givi Mikanadze qonaqlara ölkədə aparılan təhsil islahatları haqqında məlumat verib. Eyni zamanda Emin Əmrullayev Gürcüstanla təhsil sahəsində birgə layihələrə tam hazır olduqlarını bildirib. Bu açıqlamalar ümumilikdə optimist görünür. Lakin kağız üzərində yazılan planların real həyatda necə nəticə verəcəyini zaman göstərəcək...

Keçirilən görüşlər haqqında yayımlanan xəbərlər arasında mənim üçün maraqlı olan Gürcüstanda yaşayan azərbaycanlıların təhsil sisteminə nəzər salmalarıdır. Azərbaycanın təhsil naziri də vurğulayıb ki, Gürcüstanda xeyli sayda azərbaycanlı yaşayır və onlar həm öz ana dillərini, həm də dövlət dili olan gürcü dilini yaxşı öyrənməlidirlər. Bu fikir çox doğrudur. Çünki dil bilmədən nə məktəbdə uğur qazanmaq olur, nə də universitetdə rahat təhsil almaq mümkündür. Amma mənim şəxsi təcrübəmə əsaslanaraq deyə bilərəm ki, azərbaycandilli məktəblərdə dil problemi təkcə dərs saatlarının azlığından irəli gəlmir. Mənim oxuduğum məktəbdə gürcü dili həftədə beş dəfə tədris olunurdu. Amma müəllimin dərsə bəzən gəlməməsi, dərslərin səs-küylü keçməsi və şagirdlərin motivasiyasının aşağı olması səbəbindən bu saatların real faydası çox az olurdu. Dərsin necə keçirilməsi, müəllimin məsuliyyəti və məktəbin ümumi mühiti daha həlledici amildir. Bu çatışmazlıqları hiss etdiyimdən əlavə kurslara getdim və dili praktik şəkildə öyrənməyə başladım. Həmin dövrdə ən böyük kömək isə "1+4" proqramı oldu. Bu proqramın əsas prinsipi ondan ibarətdir ki, bir il ərzində intensiv şəkildə gürcü dilini öyrənirsən, sonra isə dörd il (ixtisasdan asılı olaraq) istədiyin ixtisas üzrə təhsil ala bilirsən. Mən bu proqram sayəsində universitetə daha inamla daxil oldum və dərslərdə dil baxımından çətinlik çəkmədim. Bu sistem həqiqətən də yüzlərlə azərbaycanlı gənc üçün real imkan yaradıb. Lakin mən düşünürəm ki, "1+4" proqramı problemi tam həll etmir. Məktəbdə dilin əsası yaxşı qoyulmadıqda gənclər hələ də əlavə səylərlə özlərini inkişaf etdirməli olurlar. Ona görə də əsas diqqət yalnız universitet mərhələsinə deyil, məktəb mərhələsinə də yönəlməlidir.

Gürcüstan hökumətinin son qərarı isə təhsil sahəsində daha geniş dəyişiklik vəd edir. Baş nazir İrakli Kobaxidze bildirib ki, 2026-cı ildən etibarən dövlət universitetlərində təhsil tamamilə pulsuz olacaq və dövlət imtahanlarını verən hər bir tələbə ödənişsiz təhsil ala biləcək. Bu qərar, fikrimcə, ölkədə böyük sosial dəyişiklik yaradacaq. Maddi imkanı olmayan gənclər üçün ali təhsil daha əlçatan olacaq. Ailələr ödəniş yükündən azad olacaq və daha çox tələbə istədiyi sahədə təhsil almağa cəsarət edəcək. Bu addım həm ölkənin iqtisadi inkişafına, həm də gənclərin gələcək karyera imkanlarına müsbət təsir göstərə bilər.

Ümumilikdə isə, həm Azərbaycan-Gürcüstan təhsil əməkdaşlığı, həm "1+4" proqramı, həm də 2026-cı ildən tətbiq olunacaq pulsuz təhsil qərarı gənclər üçün geniş imkanlar yaradır. Kağız üzərində, dildə dedikdə hər biri çox yaxşı planlardır. Ancaq bu addımlar düzgün və ardıcıl şəkildə həyata keçirilərsə həm azərbaycanlı gənclər, həm də ümumilikdə Gürcüstan təhsil sistemi daha güclü inkişaf edəcək. Əsas məsələ kağız üzərində yazılan planların real həyatda da düzgün tətbiq olunmasıdır. Görülən işlər məktəbdən başlayıb universitetə qədər uzanmalıdır ki, gənclər dil biliklərini, akademik bacarıqlarını, həm də şəxsi inkişaf imkanlarını maksimum dərəcədə istifadə edə bilsinlər.

**Validə Fətullayeva**

*Tbilisi Dövlət Universitetinin Dəqiq və təbiət elmləri fakültəsinin 2-ci kurs tələbəsi*

# YENİ İL GƏLİR, AMMA HƏR EVƏ YOX



Zamanın sürəti qarşısında aciz qalan insanlıq daha bir 365 günlük marafonun sonuna yaxınlaşdı. Dekabrın sonudur, qazanılan qələbələrin və çıxarılan dərslərin yekunudur.

Bu il dünya üçün həm texnoloji sıçrayışlar, həm də qlobal çağırışlarla dolu bir dövr kimi yadda qaldı. Yeni il gəldi. Yenə gəldi. Hər il gəldiyi kimi. Küçələr işıqlandırılıb, vitrinlər parlayır, mağazalarda növbələr artıb. Bayram gəlir deyə sanki hər şey yaxşı olmalıdır. Gülmək lazımdır, sevinmək lazımdır, insanlar özlərini xoşbəxt kimi aparmağa başlayıb. Elə bil bu, bir məcburiyyətdir. Elə bil dekabrın sonunda kədər ləğv olunur.

Hamı tələsir. Kimisi hədiyyə almağa, kimisi süfrə qurmağa, kimisi də sosial şəbəkələrdə "ilin yekunu" statusunu paylaşmağa. Hamı nəsə sübut etməyə çalışır. Kimin ili daha dolu keçib, kimin şəkilləri daha parlaqdır, kimin gülüşü daha inandırıcıdır. Kim neçə ölkə gəzib, kimin nişanlısı, həyat yoldaşı il boyu nə qədər hədiyyə alıb və s. Axı çox maraqlıdır bizə.

Amma bu işıqların altında çox şey gizlənir. Danışılmayan yorğunluqlar, üstü örtülən problemlər, susdurulan həqiqətlər. Yeni il gəlir deyə borclar silinmir, ağrılar yox olmur, itkilər geri qayıtmır. Sadəcə hamı bir gecəlik bunları unutmağa çalışır.

Yeni il bir az da riyakarlıq mövsümüdür. İl boyu bir-birini görməyən insanlar birdən "dəyərlərdən" danışır. İl boyu qonşusunun halını soruşmayanlar bayram axşamı əli açıqlıq edir. Özü tox olan, başqasının ac olduğunu görməyənlər birdən "humanizm" sözünü xatırlayır.

Uşaqlar üçün Yeni il hədiyyə deməkdir. Amma hər uşaq üçün yox. Bəziləri yeni oyuncaqlarının qutusunu açır, bəziləri isə valideyninin üzünə baxıb "problem deyil" deməyi öyrənir. Kimisi isti evdə şənlik edir, kimisi isə soyuğun içində yorğanına bükülməyə məcbur qalır. Yeni il bu fərqi aradan qaldırmır, sadəcə üstünü örtür. Bunu anlatmaqdan dilimizdə söz qalmayıb, qələmimizin mürəkkəbi bitib, amma nə çarə...

Böyüklər üçün Yeni il ümid deməkdir deyirlər. Amma hansı ümid? Eyni problemlərin başqa tarixlə davamı? Eyni işsizlik, eyni ədalətsizlik, eyni qorxu? Təqvimdə 2025 yerini 2026 ilə dəyişir, amma sistem yerində qalır. İnsanlar isə hər il eyni sözləri deyir: "Bu il fərqli olacaq". Olmur.

Bir də "şükür et" deyənlər var, hər şeyə baxmayaraq sus deyənlər. Sanki şükür etmək problemləri görməmək deməkdir. Sanki narazı olmaq nankorluqdur. Halbuki susmaqla heç nə düzəlməyib. Əksinə, çox şey elə susduğumuz üçün bu vəziyyətə gəlib.

Bu cəmiyyət bayramı sevir, amma məsuliyyəti yox. Şəkil çəkməyi sevir, amma paylaşmağı yox. Dua etməyi sevir, amma dəyişməyi yox. Hamı möcüzə gözləyir, amma möcüzə olmaq istəmir.

Yeni il gələndə ən çox da həqiqətlər susdurulur. Çünki həqiqət bayram əhvalını pozur. Qəza xəbərləri, xəstəxanalar, yoxsulluq, tək qalan insanlar – bunlar bayram mövzusu deyil. Ona görə də kənara qoyulur. Sanki görməsək yox olar. Bəs həmin o ailələr... övladı içəridə canıyla əlləşərkən həmin gün bayramı necə görsün gözü o ananın... Bir həftə öncə bir masada oturub bayram üçün planlar quran balası bayramda yanında deyil. Yerində qorxu var, ümid var, saatların yavaş-yavaş keçməsi var.

Kənardan baxanda hər şey davam edir. Musiqi çalır, fişənglər atılır, insanlar gülür. Amma onların dünyası artıq dayanıb. Onlar üçün vaxt bayram gecəsi ilə ölçülmür, reanimasiyadan gələn bir xəbərlə ölçülür. Bir göz açımı, bir barmaq tərpənişi, bir "stabil" sözü onların Yeni il arzusu olar. Heç kim bunu paylaşmır. Çünki bu, gözəl kadr deyil. Bayram lentinə yaraşmır, elə deyilmi?!

Bu həqiqətləri görməmək asandır. Amma onlar mövcuddur. Və bayram keçəndən sonra da orada qalacaqlar. Çünki həyat hər zaman belə olub, belə də olacaq, günlər, aylar ötür, yenə marafonumuza qaldığımız yerdən davam edirik.

Bəlkə də problem Yeni ildə deyil. Problem hər il eyni qalmağımızdadır, eyni biganəlikdə, eyni rahat vicdanda, eyni düşüncədə?..

Ümidvaram ki, bu il insanlara təkcə yeni arzular yox, düşüncə də gətirər. Özündən başqasını görməyi, yanındakının halını hiss etməyi, dünyaya bir az da məsuliyyətlə baxmağı öyrədər. Bəlkə bu dəfə insanlar yalnız öz həyatını deyil, başqasının yükünü də anlayar.

**Aytən Fətullayeva**

*Tbilisi Dövlət Universitetinin Dəqiq və təbiət elmləri fakültəsinin 3-cü kurs tələbəsi*

# TARİXİN DOSTLUQ SƏHİFƏLƏRİ



*(əvvəli ötən sayda)*

Qeronti Kikodze Şəmsədilli Əli Sultanın dar gündə II İraklinin hoyuna yetdiyini qeyd edərək yazır: "Kəlbəli xan özünün 4 minlik qoşunu ilə Jinvala yaxınlaşan vaxtlar Xevsuretdən Tiflisə doğru üç yüz döyüşçü İrakliyə köməyə tələsirdi. Burada şəmsədillilərdən xevsurlar eşitdi ki, gürcü çarı Krtsanis yaxınlığında məğlub oldu, Tiflis Ağa Məhəmmədin əlinə keçdi. Elə bu söhbət zamanı xevsurlar görür ki, Jinval körpüsü yaxınlığında iranlıların qoşunu peyda oldu. Xevsurlar özünü itirməyib kömək üçün xahişlə Əli Sultana müraciət etdilər. Əli Sultan xevsurların xahişinə əməl edərək 200 nəfər süvari döyüşçüsünə üç yüz nəfər xevsur döyüşçüsünü də qatıb 4 minlik iranlılara qarşı hücuma keçərək onları qəti məğlubiyyətə uğratdılar. Beləcə, şəmsədilli Əli Sultan dar gündə II İraklinin hoyuna yetdi. Qeronti Kikodze "II İrakli" kitabında yazır: "Kəlbəli xanın özü Jinval körpüsünə qədər getdi. Lakin burada II İrakliyə sadiq müsəlman şəmsədilli Əli Sultan dayanmışdı. Onun öz camaatından başqa araqvili və pşav-xevsurlardan ibarət orduları da var idi. Bu sonuncular müharibədən çıxmışdılar, lakin gecikirdilər. Şəmsədilli Əli Sultan iranlıları geri oturtdu. Onların bir çoxunu əsir götürdü və İrakliyə təhvil verdi".

Krtsanisdə 300 nəfər araqviyalı ilə birgə 150 nəfər soydaşımız fədakarcasına vuruşmuşdu. 300 araqviyalı Gürcüstanda demək olar ki, əfsanələşmişdir. Amma Krtsanis müharibəsində rəşadətlə vuruşan 150 nəfər Borçalı qəhrəmanı barədə çoxumuz, demək olar ki, heç nə bilmirik. Mənbələrin verdiyi məlumata görə, onların hamısı Tiflis uğrunda fədakarcasına vuruşaraq həlak olmuşlar. S.Kakabadze "Krtsanis müharibəsi" kitabında bu barədə yazır: "Kartli-Kaxetin qoşununun sayı sentyabrın 10-na əsasən aşağıdakı tərkibdə idi: Çarın mühafizəçiləri (daimi qoşun) – 600 nəfər, Zəkəriyyə Andronikaşvilinin başçılığı altında kənar kaxetlilər – 600 nəfər, 150 nəfər tatar (azərbaycanlı – M.M.), 300-dən artıq artilleriyaçı, təxminən 300 nəfər seçmə vətəndaş, xevsur və tuşilər – təxminən 500 nəfər, sərdar Otar Amilaxvari və Muxran batononun döyüşçüləri – təxminən 200 nəfər. Cəmisi təxminən 2550 nəfər. Bütün bunların hamısı döyüş xəttində dururdular...".

Qeronti Kikodze "II İrakli" əsərində II İrakliyə borçalıların sədaqətini bir daha qeyd edərək yazır: "İrakli və Teymuraz koalisiyasının qəti formalaşdırılmasına nail olmaq istəyirdilər və qazaxlı-borçalılardan və gəncəlilərdən ibarət orduların da arasında olduğu gürcü qoşunları fövqəladə vəziyyətdə salınmış körpü ilə Alazani çayını keçərək Nuxa xanlığına hücum etdilər".

Ağa Məhəmməd şah Qacarın qoşunları Tiflis müsəlmanlarına qarşı da amansız idilər.

S.Kakabadze yuxarıda adını çəkdiyimiz əsərində bu barədə yazır: "II İraklinin tərəfində yerli müsəlmanların da fədakarcasına vuruşduğuna və Tiflisi həyatları bahasına qoruduqlarına görə onlar tiflisli müsəlmanlara da güzəşt etmirdilər. Serovun verdiyi məlumata görə, iranlılar Qala məhəlləsində yaşayan müsəlmanlara xristianlardan daha çox cəza verirdilər".

Tiflis bəylərindən olan Sadıq Yadigarovun özü, eləcə də oğulları haqqında 1797-ci ildə verilmiş fərmanda bu sətirlər vardır: "Bizim əcdadlarımız "Sınıq körpü" ellərini sizə bağışlamışdır. Bu barədə sizə babamız Nazarali xanın (I İraklinin), çariça Annanın, əmimiz İmamqulu xanın (II Davidin) və atamız çar Teymurazın da fərmanları olmuşdur. Ağa Məhəmməd şah Qacar Tiflisi yandırıb darmadağın edəndə sən bizim yanımızda olubsan və imkan daxilində bizə köməkliklər göstəribsən. Sənin oğulların Ağacan və Allahverdi isə Araqviyə gedəndə bizi müşayiət ediblər, can-başla bizə xidmət göstəriblər. Tiflisin darmadağın edilməsi zamanı sən çox şey itirdin, elə həmin vaxtlar sözügedən fərmanları da qeyb etdin. Bizə sadiqliyinə və səmimi qəlbdən xidmət etdiyinə görə onların qüvvəsini yenidən bərpa edirik və Sınıq körpü ellərini sənin öhdənə veririk".

S.Kakabadze II İraklinin məğlubiyyətinin səbəblərindən birini qeyd edərək yazır: "...O cümlədən qarabağlı məliklər və Azərbaycan ermənilərinin bu mövqeyi Tiflis ermənilərinin qabaqcıl olanları arasında da eyni təsir göstərmişdi. Bir tərəfdən bu sonuncular yalnız Rusiyaya böyük ümidlər bəsləyirdilər, digər tərəfdən isə Azərbaycan ermənilərinin İrakliyə qarşı narazılıqları ilə hesablaşırdılar. Tiflis ermənilərinin nüfuzlu missiyasının Ağa Məhəmməd şah Qacarın hücumunu rəğbətlə qarşılaması və Tiflisin müdafiəsinə qarşı çıxması da bununla izah olunur". Elə bu müəllif yazır ki, Ağa Məhəmməd şah Qacarın Gürcüstana hücumu zamanı Qazax-Borçalı elləri öz mal-qarası ilə Kartlidə sığınacaq tapır, oradan da müəyyən hissəsi Axalsixe paşalığına keçən Borçalı qarapapaqları şahzadə Aleksandreni Axalsixedə dövrəyə alaraq ona sədaqətlə xidmət edəcəklərini ifadə edir, Xudu Borçalı onunla yaxşı münasibətdə olur, bəzi yerlərdə Xudu Borçalının sözünün ötkünlüyü özünü büruzə verir. Sarkis Kakabadze başqa bir yerdə belə yazır: "Ağa Məhəmməd şah Qacar Tiflisin üst yanından, daha doğrusu, Seyidabad tərəfdən hücuma keçəndə burada yaşayan seyidlər qulluqçuları ilə birlikdə əllərində silah vətənin keşiyində dayanırlar. Düşmən Savkis çayına yaxınlaşanda onu yüz nəfər seçmə seyid bir əlində Quran, o biri əlində quzu qarşılayır. Quzuların boğazlarını kəsib Ağa Məhəmməd şah Qacarın ayaqları altına ataraq demişlər ki, bu sizin qurbanınızdır, yalnız şəhərin xristian hissəsini dağıtmayın. Var-dövlətinin əldən getməsinə, ev-eşiklərinin tar-mar edilməsinə baxmayaraq onlar həmşəhərlilərinin xilas olunması barəsində düşünürdülər..."

Ağa Məhəmməd şah Qacar süvari qoşununun məğlubiyyətini eşidəndə Qurgen Yenikolopovun oğlu Karamanı İraklinin yanına göndərir. Bir oğlunu və yaxud nəvəsini girov verməsini, Azad xanın əmlakı olan ağ almazı və knyaz Potyomkinin hədiyyə etdiyi böyük saatı və sığınan qarabağlıları təhvil verməsini tələb edir. Əvəzində əsirlərin geri qaytarılmasını vəd edir. İrakli də öz növbəsində danışıq üçün Ağa Məhəmməd şah Qacarın Soğanlıqdakı düşərgəsinə süfrəçi Keyxosrov Avalişvilini göndərir. Bu danışıqlar xeyli uzanır. Bu ərəfədə Ağa Məhəmməd şah Qacara Xorasanda baş verən üsyan barədə xəbər çatdırılır. Odur ki, şah üsyanı yatırmaq, şahlıq tacını başına qoymaq üçün İrana qayıtmaq qərarına gəlir. Az keçməmiş ona sui-qəsd edilərək qətlə yetirilir...

Ağa Məhəmməd şah Qacarın ölüm xəbərini II İrakliyə Baydar sultanı Almaz vaxtında çatdıraraq deyibmiş: "Qazaxda idim. Bu xəbəri şəxsən orada eşitdim. Səhər yeni açılırdı. Elə həmin an ata mindim. Yaxşı bir atım var idi. Onu dördnala çaparaq şəhərə gəldim, özümü öylədən sonra sizə yetirdim". Bu zaman çar yanmış, xarabaya çevrilmiş sarayının yerində öz böyük əyanları ilə dayanıb nəsə danışırdı. O, atın yüyənini çəkdi və çara səsləndi:

– Çara salamlar olsun. Təbrik edirəm, – deyərək, eyni zamanda atdan düşdü. Çar ona baxdı, tanıdı və tezcə onun yanına gələrək, – Nə xəbər var? – deyə soruşdu. Ağa Məhəmməd şah Qacar Qarabağda qətlə yetirilmişdi, – dedi. Çar çox xoşhal oldu, lakin başqları narahat oldular. Bu da bizim bədbəxtliyimizdir ki, Ağa Məhəmməd şah Qacarın öhdəsindən gələ bilmədik, – dedilər... Deyilənə görə, həmin günlər İraklinin əlaltıları olan "tatarlar" da çox sədaqətlə hərəkət edirlərmiş. Belə ki, həmin vaxtlar bəzi ermənilərin və bir çox gürcü tavadlarının üzündən Gürcüstan məhv oldu..."

Xülasə, gürcü-azərbaycanlı dostluğunu əks etdirən belə nümunələri tarixin qaranlıq səhifələrinə baş vurmaqla çox tapmaq və örnək göstərmək olar. Həm də təkcə örnək göstərmək yox, tarixin yaddaşında həkk olunan bu dostluq faktları üzərində indən belə də gürcü-azərbaycanlı, Gürcüstan-Azərbaycan əlaqələrini daha da genişləndirmək dövrün tələblərindən irəli gəlir.

**Mirzə Məmmədoğlu**

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

31 DEKABR 2025-Cİ İL № 23 (240)

Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

# MƏMMƏD HƏSƏNLİNİN ŞEİRLƏR KİTABI NƏŞR OLUNUB




Şair Məmməd Həsənlinin “Açın bu qapını” adlı şeirlər kitabı işıq üzü görüb. Kitabda Məmməd Həsənlinin seçmə şeirləri toplanıb. Məmməd Həsənli imzası 80-ci illərdən müxtəlif ədəbi mətbuat orqanlarından oxuculara tanış olsa da indiyədək şairin şeirləri kitab şəklində nəşr olunmamışdı. “Açın bu qapını” şairin ilk şeirlər toplusudur.

Kitab Gürcüstan Yazıçılar Birliyi Azərbaycan bölməsinin seriyasından olaraq Tbilisidə “Mtsiqnobari” nəşriyyatında çap olunub. 150 səhifədən ibarət toplunun redaktoru Gürcüstan Yazıçılar Birliyi Azərbaycan bölməsinin sədri Allahverdi Təkləlidir.

Xatırladaq ki, Məmməd Həsənli 1952-ci ildə Qardabani (Qarayazı) şəhərində anadan olub. 1974-cü ildə Bakı Politexnik Texnikumunu bitirib. Qardabani şəhər 47 saylı texniki peşə məktəbində müəllim işləyib.

Məmməd Həsənli 80-ci illər nəslinin istedadlı nümayəndələrindəndir. Vaxtilə şeirləri “Ulduz” və “Azərbaycan” jurnallarında, “Ədəbiyyat və incəsənət”, “Gürcüstan” və “Samqori” qəzetlərində, həmçinin “Çeşmə” və “Dan ulduzu” ədəbi toplularında işıq üzü görüb.

# BAŞ NAZİR: GÜRCÜSTANIN VALYUTA EHTİYATLARININ 6 MİLYARD DOLLARI KEÇƏCƏYİ GÖZLƏNİLİR



Gürcüstanın valyuta ehtiyatlarının tarixdə ilk dəfə 6 milyard ABŞ dollarını keçəcəyi gözlənilir. Bu sözləri Baş nazir İrakli Kobaxidze mətbuata açıqlamasında deyib.

Baş nazir bildirib ki, iqtisadi artım büdcəni artırmaq imkanı verir.

“Bu ili görünməmiş iqtisadi nəticələrlə başa vururuq. Təbii ki, bu artım birbaşa büdcə artımında öz əksini tapdı və bu, bizə bütün sahələrdə maliyyələşdirməni artırmaq imkanı verdi. Əsas prioritetlərdən biri yenə də sosial sahə olacaq və büdcənin üçdə birindən çoxu səhiyyə xərcləri, pensiyalar, sosial müavinətlər və s. daxil olmaqla sosial ödənişlərə xərclənəcək”, – deyə İrakli Kobaxidze vurğulayıb.

Onun sözlərinə görə, infrastruktur sektorunda ciddi maliyyələşdirmə olacaq, büdcəyə daxil olan ümumi kapital xərcləri təxminən 8,2 milyard lari olacaq və bu, iqtisadiyyata əlavə stimul verəcək.

# KİTAB OXUMAQ MÜSABİQƏSİNİN QALİBLƏRİ MƏLUM OLUB



Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının təşkilatçılığı ilə “Deizm” kitabı üzrə oxu müsabiqəsi keçirilib.

Müsabiqəyə 300-dən çox gənc qatılıb. Dekabrın 27-də yazılı imtahan təşkil edilərək birinci, ikinci və üçüncü yerləri tutan iştirakçılara mükafatlar təqdim olunub.

Kitab oxumaq üzrə müsabiqədə birinci yerə Əminə İbrahimova, ikinci yerə Zəhra Hüseynova, üçüncü yerə isə Sevinc Məmmədova layiq görülüb.

Qeyd edək ki, birinci yerin sahibi 1500 lari, ikinci yerin sahibi 1000 lari, üçüncü yerin sahibi isə 500 lari pul mükafatı və sertifikatlarla təltif olunublar.

Tədbirdə Bütün Gürcüstan Müsəlmanları İdarəsinin Şərqi Gürcüstan müftisi Hacı Etibar Eminov, Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının sədri Musa Hacıyev, eləcə də hər iki qurumun nümayəndələri iştirak edib və gənclərə uğurlar arzulayıblar.

# KVEMO KARTLİDƏ 7595 MÜƏLLİM DƏRS DEYİR



2025-2026-cı tədris ilinin başlanğıcında ümumtəhsil müəssisələrində 66,3 min müəllim işləyirdi. Bu, ötən ilin analoji dövrünün göstəricisindən 0,5 faiz çoxdur. Ən çox – 15821 müəllim Tbilisi məktəblərində dərs keçir. Bu barədə Gürcüstan Milli Statistika Xidməti məlumat yayıb.

**Bölgələrə əsasən müəllimlərin sayı isə bu cürdür:**

- Tbilisi – 15821 müəllim;
- İmereti – 9829 müəllim;
- **Kvemo Kartli – 7595 müəllim;**
- Acara Muxtar Respublikası – 7255 müəllim;
- Kaxeti – 5120 müəllim;
- Sameqrelo-Zemo Svaneti – 4413 müəllim;
- Şida Kartli – 4356 müəllim;
- Quriya – 2234 müəllim;
- Mtsxeta-Mtianeti – 1768 müəllim;
- Raça-Leçxumi və Kvemo Svaneti – 1016 müəllim.

*Mənbə: etaloni.ge*

# GÜRCÜSTANIN XARİCİ TİCARƏT DÖVRİYYƏSİ 23 MİLYARDI ÖTÜB



Gürcüstan Milli Statistika Xidmətinin yaydığı məlumata görə, 2025-ci ilin yanvar-noyabr ayları ərzində Gürcüstanın xarici ticarət dövriyyəsi (bəyan edilməmiş ticarət istisna olmaqla) 23 milyard 216,2 milyon dollar təşkil edib. Bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 9,5 faiz çoxdur.

Xidmətin ilkin hesablamalarına görə, xarici ticarətdə ixracın həcmi 10,1 faiz artaraq 6 milyard 618,1 milyon dollar, idxalın həcmi isə 9,3 faiz artaraq 16 milyard 598,1 milyon dollar təşkil edib.

Hesabat dövründə ölkənin xarici ticarət dövriyyəsində mənfi ticarət saldosu 9 milyard 980 milyon dollar təşkil edib ki, bu da xarici ticarət dövriyyəsinin 43 faizi deməkdir.

Təsisçi: “Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı”

Redaktor: Azər MUSAOĞLU
Yayım direktoru: Hacı BƏKİROĞLU
Qrafik dizayn: Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b.
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarda yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.